# BƏŞƏRİ İDEALLAR ŞAİRİ NİZAMİ GƏNCƏVİ



*(Nizami Gəncəvi - 880)*

***(Əvvəli ötən sayımızda)***

"Nizami "Xəmsə"sinin fəlsəfi əsaslarını, əgər belə demək mümkündürsə, əl-Fərabi (IX-X əsrlər) müəyyən etmişdir. Və dahi türk şairinin yaratdığı, demək olar ki, bütün poetik obrazların fəlsəfi sxemi dahi türk filosofunda mövcuddur – "hökmdarın qeyri-adi kamilliyi", "ideal idarə sistemi", "etnik intellektualizm", "qenesioloji optimizm" və s. məsələlər Nizamiyə əl-Fərabidən gəlir. Əgər nəzərə alsaq ki, Nizaminin dönə-dönə müraciət etdiyi antik fəlsəfənin Şərqdə ilk və ən mükəmməl şərhçisi də əl-Fərabidir, onda aydın olar ki, dahi türk filosofunun dahi türk şairinə müəllimliyi geniş miqyaslıdır. Əl-Fərabi etiraf edirdi ki, insan ağlı "ilahi intellekt"in fəaliyyət sferasına nüfuz etmək imkanına malikdir –bu inqilabi mövqeyi Nizami də müdafiə etmişdir" (2, 43). Tipoloji aspektdə müəyyənləşən təsəvvür əl-Fərabinin və N.Gəncəvinin insan ağlı səviyyəsində ortaya qoyduğu konsepsiyanı həm də hər iki şəxsin özü timsalında nümunə olaraq diqqət önünə gətirir. Sonrakı dönəmlərdə bu prosesin ümumi axarı N.Tusi, A.Ərdəbili, M.Əvhədi, M.Şəbustəri, Ə.Təbrizi, M.Füzuli, Ş.İ.Xətai, S.Vurğun və s. sənətkarlar səviyyəsində nəzərə çarpacaq zənginliklə faktlaşır. "Dahi türk filosofundan (əl-Fərabidən) dahi türk şairinə (Nizami Gəncəviyə) gələnlər bir xətdə etnokulturoloji fondun müəyyənləşdirdiyi zənginlik sistemine bağlanır. Əlimizdə olan 120 qəzəlin, 30 rübainin, altı qəsidənin və beş poemanın əhatələdiyi təsəvvür, bəşəri ideyalar miqyasında ideallıqlara, ruhani duyğular selinin əsrarəngiz füsunkarlıqlarına bağlanmaqla, qaynağını da oradan alır. Çoban tütəyinin səsləndirdiyi ecazkar avazlanma, elə onun özü səviyyəsində qopuzda olanlara qovuşmaqla, həm də rübabın Şərqin mədəniyyət kodları üzərində pərvəriş tapır. N.Gəncəvi bunlar üzərindən epik düşüncəyə köklənir və tarixi-mədəni axarın yeni təsəvvür etalonunun yaratmaq yolu tutur və bunları reallaşdırmaq gücü ilə ortaya çıxır. "Onun şeiri, həm özü yaratdığı yeni janr (eşq əfsanəsi), həm bu janr ilə tam ahəngdə olan məzmun və məna (ruhi təhlil), həm özünəməxsus kəskin ifadəli (rəmzli) dili, həm heç bir şeyi gözdən qaçırmayan qavrayışlı görüş (qüdrətli təsvir), həm yüksəklərdə uçan geniş təxəyyüllü parlaq obraz və təşbehlər, həm də təsadüfə yer verməden hər şeyi dəqiqləşdirib anladan və tək bir kökə bağlayan qavrayışlı fəlsəfə (vəhdəti-vücud nəzəriyyəsi) ilə eni-boyu ölçülməyən ucaman bir əsərdir. Bu əsərdə bizi özünə cəlb edən amil şair Nizaminin yanında eyni gözəllik, qüdrət və mətnliklə bərabər yeriyən filosof Nizamidir" (5, 29). N.Gəncəvinin bəşər sivilizasiyasına təqdim etdiyi eşq əfsanələrindən onun ruhi təhlillərinə qədər olanlar, eləcə də təhlil və qavrayış modeli artıq yüz illəri arxada qoyaraq irəliləməkdə və bütünlükdə bədii-estetik mühit üçün nümunə olmaq funksiyasını yerinə yetirməkdədir.

Əsərlərinə yazılmış bənzətmə və nəzirələrin sərgilədiyi təsəvvür yazılanlar timsalında Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Səlman Savəçi, Əlişir Nəvai, Xacu Kirmani, Hatifi, Fəridəddin Əttar, Əlişir Nəvai, Məhəmməd Füzuli, S.Vurğun və s. adlar öz mahiyyətində Nizami düşüncəsinin əzəmətini və fəth etdiyi coğrafi məkan və zamanları fövqəlzamanlılıq və fövqəlməkanlılıq səviyyəsində ortaya qoyur. "Söz meydanı indi bu gün mənimdir, mənimkindən böyük şeir kimindir?" qənaətində bulunan və bunu bir sual olaraq özündən əvvəlkilərə və sonrakılara yönləndirən sənətkar həm də yaratdıqları ilə özlüyündə bütün zamanlar üçün hesablanacaq bir meyarı ortaya qoyur. Türk epos yaddaşından, eləcə də etnokulturoloji müəyyənliyin sərgilədiyi təsəvvürdən baş alıb gələn təfəkkür intelleksiyası ilə həm də ümumşərq sisteminin bütün postulatlarına sahib durmaq missiyası səviyyəsində fövqəltipi ortaya qoyur. Dünya ədəbiyyatının tarixinə öz adını yazmış böyük sənətkarlar Nizami çeşməsinin gözündən su içməklə onun şeir bayrağını daha yüksəklərə qaldırmaq yolunu tutmuşlar. "Aləmə gövhərlər saçdı Gəncədən" söyləyən Əmir Xosrov Dəhləvi (1253-1325) "xəzinəni saçan da, bəstələyən də odur, bu iş onun boyuna biçilmişdir, mən isə bu işdə onun davamçısıyam" deməklə Nizami böyüklüyünü qiymətləndirməyə çalışmışdır.

Nizaminin "Xəmsə"si qədər əzəmətli və füsunkar lirikası türk genotipinin bütün mədəniyyət və mənəviyyat klişelərini özündə ehtiva etmək gücü ilə sonrakı ədəbi-bədii düşüncə üçün də nümunəyə çevrilir. Ədəbi-mədəni prosesin əsrlərdən-əsrlərə daşınan yaradıcılıq və yaddaş kodları bir bütöv olaraq şairin bədii düşüncə timsalında fəlsəfi əsaslarından poetexnoloji formullarına qədər əhatə edə bilmək gücü ilə səciyyəvilik qazanır. Hadisələrin epik təmkinlə müəyyənləşmiş axarı əvvəlcədən mövcud nizama bağlanaraq eposdan gələn təbii nizamı diqqət önünə gətirməklə bətnində onun daşınış formulasını faktlaşdırır.

Mənəm ol şahi-məani ki, fəzilətim əyandır,
Yer ilə zəmanə hakim hünərim bir asimandır.
Nəfəsim tutub cahanı uca səsli zəngə bənzər,
Qələmimlə bayraq olmuş, o da fatehi-cahandır.
Günəşim fələkdə parlar, o şəfəq saçar cahana,
Cəsədim məsih dəmdir, o həyat bağışlayandır.
Sözün aləmində əbədiyyətə irmiş kəlamım,
Hünərim bu padşahlıq sarayında hökmrandır.

Göründüyü kimi, "mənəm ol şahi-məani ki, fəzilətim əyandır" deyən şair "nəfəsim tutub cahanı uca səsli zəngə bənzər" əlavəsi ilə özü haqqında mükəmməl bilgini ortaya qoyur. Nizami lirikasının verdiyi informasiya şairin özü haqqında zamanında olan təsəvvürdən qaynaqlanmaqla, şeir düşüncəsində nələrin olmasını bir bütöv olaraq diqqət önünə gətirir. "Günəşim fələkdə parlar" deyən sənətkar, "o həyat bağışlar" deməklə daha dərin mətləblərə varır və səkkiz yüz ildən çox zaman ərzində təhlillərə yol açan məsələnin mahiyyətinə işıq tutur.

Nizami yaradıcılığının bədii-estetik, ictimai-fəlsəfi, tarixi-mədəni əsası ümummüsəlman şərqinin hadisəsi olmaqla, həm də genotip anlamında daha dərin qatlara bağlanması ilə diqqət önünə gəlir. "Oğuz Kağan", "Ərqənəkon", "Alp ər Tonqa", "Manas", "Alpamış", "Bilqamıs", "Boz Qurd", "Köç", "Törəyiş", "Kitabi-Dədə Qorqud" və s. kimi epos təfəkküründə olan müəyyənləşmiş polifonik yaddaş qatı etnik sistem səviyyəsində Nizaminin epik təfəkküründə yeni sferaya daxil olur. "Xəmsə"nin müəyyənləşdirdiyi genetip ümumşərq anlamında bir düşüncə hadisəsi olaraq özündən sonrakı axarın fərqli istiqamətinə bağlanır. Mərkəzi Asiya və Kiçik Asiya səviyyəsində gedən tarixi-mədəni proses epik təfəkkürdə Nizami düşüncəsində olanlarla daha dərin qatları ortaya qoymaq və qoya bilmək gücü ilə meydana çıxır. Tarixi təkamülün eposdan "Xəmsə"yə daşıyb gətirdikləri Yusif Balasaqunlu, Əhməd Yügnəkli, Əhməd Yasəvi, Əbülqasım Firdovsi timsalında genişlənmələrlə diqqət önünə gəlir. Bu axar isə özündə düşüncə formulunu cızmaqla, həm də onun metodologizmini bir bütöv olaraq reallaşdırır. Şərq ədəbiyyatının böyük simalarından hesab edilən Əbdürrəhman Cami (1414-1492) Nizaminin ortaya qoyduğu sistem səviyyəsində "mən öz zəifliyimlə onun arxasınca dəvə qoşdum, ona çatmadımsa üzümə qonan tozu bəsimdir" söyləməsi ümumşərq kontekstində genişlənməni bir bütöv olaraq ortaya qoyur. "Sözün aləmində əbədiyyətə irmiş kəlamım" deyən ədib, "hünərim bu padşahlıq sarayında hökmdardır" hökmünü XII əsrin özü səviyyəsində açıqlayır.

Müsəlman şərqinin hadisəsi olmaya N.Gəncəvinin gəlişinin qaynağı bütün parametrlərdə epos yaddaşında olanlardan qaynaqlanmaqla, intibah dövrü səviyyəsində "Xəmsə" modelini reallaşdırır. "Xəmsə"nin isə ortaya qoyduğu təsəvvür tarixi-mədəni prosesin məntiqi olaraq hadisə səviyyəsində Nizami adı ilə müəyyənləşəcək məktəbi diqqət önünə gətirir. "XII əsrin ikinci yarısında Azərbaycan intibah ədəbiyyatı Nizaminin yaradıcılığında inkişafının ən yüksək mərhələsinə qədəm qoyur. Özünəqədərki zəngin elm və mədəniyyəti yaradıcı şəkildə mənimsəyən bu dahi sənətkar lirik və epik şeirə yeni istiqamət verdi. Ağlın girdabı ilə sənətin zirvəsi arasında vəhdət yarandı. Şərqin və Qərbin qədim mədəniyyətinə, yeni müsəlman göylərə hücum çəkən elm və incəsənətinə əsaslanan Nizami irsi dərin humanizm, demokratikliyi ilə fərqlənir. Qadına və əməkçi insana münasibətində Nizami irsinin hüdudlarının təsiri ilə "Xəmsə" yaratmaq, yaxud hər hansı bir poemasına cavab yazmaq ənənəyə çevrilir" (6, 121). Nizami üslubunun və epik təfəkküründə olanların, eləcə də bütünlükdə bədii düşüncəsinin ortaya qoyduğu sistemi bir bütöv olaraq mənimsəmək və ondan imkanları daxilində yararlanmaq özü bir ənənə olaraq sonrakı yüzilliklərin mahiyyətində dayanan məsələ kimi diqqət önünə gəlir. Əmir Xosrov Dəhləvidən Məhəmməd Füzuliyə və oradan da Səməd Vurğuna gələn yolun möhtəşəmliyi genotip olaraq qaynaq səviyyəsində gediləcək yola işıq tutur. "Xəmsə"nin formalaşdırdığı metodologiya bütünlükdə ümumşərq hadisəsi səviyyəsində var-gəllə faktlaşır və ədəbi-mədəni prosesə istiqamət vermək funksiyası ilə şərtlənir. S.Qəznəvi, Ə.Firdovsi, Ənvəri, Ə.Rudəki timsalında olanların tipologiyası özlüyündə ümumşərq timsalında Nizami ilə bu adın ehtiva etdiyi səviyyədə bir ucalığa bağlanır. Ə.Firdovsinin "Şahnamə"sinin ortaya qoyduğu möhtəşəmlik İran-Turan kontekstində VII əsrə qədər olanları tarix və folklor gücündə əks etdirmək məramına köklənməklə bir ədəbiyyat hadisəsi olaraq sonrakı dövrlər üçün həm də mənbə funksiyasını yerinə yetirir. Özünəqədərki düşüncənin eposdan gələn modelini mənimsəməklə ortaya çıxan "Şahnamə" tərəfli münasibət sərgiləmək cəhdlərinə nə qədər köklənsə də, mahiyyət anlamında Turan timsalında daha əski zamanlardan müəyyənləşmiş təsəvvürdən yaxa qurtara bilmir. Bütün cəhdlərində onun fövqəlzamanlıq təsəvvüründən uzaqlaşmaq məqsədinə baxmayaraq, əksinə, ona daha da meyillənir. Burada həm də fövqəlməkanlılıq anlamında Turanın məkan və zaman modelini bəlkə də özü də bilmədən gələcəyə daşımaq yolunu tutur. Ə.Firdovsi bütünlükdə üslubu, "Turan" səviyyəsində dedikləri ilə bir növ missiya daşıyıcısı olaraq da diqqət önünə gəlir. N.Gəncəvi bütün bunlar, müəyyənləşmiş bədii-estetik təfəkkür sisteminin diqqət önünə gətirdikləri timsalında intibah səviyyəsində hadisəyə çevrilir. "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" bunun bariz nümunəsi olaraq yeni formada, yeni təfəkkür stixiyasında mövcudluğunu və düşüncə tipini diktə edir.

Ağlın gözü işıqlanmış qəlb evinin çırağından,
Yaxşı olar bu nur ilə gizli xəzinə axtarasan.
Xəznə tapmaq istəyirsən sındır canın sütununu,
Ki xəznələr asanlıqla ələ gəlməz, anla bunu!

Dünyanın beş möcüzəsi səviyyəsində təqdim edilən "Xəmsə", bir bütöv olmadan əlavə, həm də bu, beşlik səviyyəsində ayrı-ayrılıqda eyni tipologiyanı, ümumşərq timsalında bütövlük və fərdilik timsalında mükəmməl bir hadisə səviyyəsində təsəvvürü özündə ehtiva edir.

**(Davamı var)**



***Mahmud ALLAHMANLI, filologiya elmləri doktoru, professor***